23 dekabr bələdiyyələrə seçkilər günüdür

Məntəqə seçiciləri gözləyir

Bələdiyyələrə seçkilər yaxınlaşır. Dekabrın 23-də özünüidarəetmə qurumlarına keçiriləcək seçkilər yaxınlaşdıqca səsvermə məntəqələrində son hazırlıq işləri görülür, bəzi məntəqələrdə isə bu proses başa çatdırılmışdır. Bu baxımdan şəhər 3 saylı seçki məntəqəsində görülən hazırlıq işləri təqdirəlayiqdir.

Məntəqə şəhər 3 saylı tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının tərkibi 6 nəfərdən ibarətdir. Komissiya üzvlərinin hamısı təcrübəli, Seçki Məcələsinə yaxından bələd olan insanlardır. Komissiyanı müxtəlif siyasi partiyaların, bitərəflərin fəal nümayəndələri təmsil edirlər. Burada partiyallığından asılı olmayaraq hamı üçün işgüzar mühit yaradılıb, onlar çalışırlar ki, bu ölkə əhəmiyyətli siyasi kampaniya azad, şəffaf və demokratik qaydada başa çatdırılsın.

Məntəqənin sədri Müxtəsər İsayev bir neçə dəfə prezident, parlament və bələdiyyə seçkilərində məntəqəyə rəhbərlik edib. Onun sədrlik etdiyi məntəqədə heç vaxt qanunsuz müdaxilələrə və seçki pozuntularına yol verilməmişdir. O, bizimlə söhbət əsnasında dedi ki, bu seçkilərdə məntəqə üzrə 1406 nəfər seçici səsvermədə iştirak edəcəkdir. Onların arasında ahıllar da var, ilk dəfə səs verəcək oğlan və qızlar da. Məntəqə sədri onu da əlavə etdi ki, məntəqə seçki ilə bağlı bütün zəruri vəsaitlərlə, yeni təlimatlarla və hüquqi sənədlərlə təmin olunmuşdur. Məntəqə seçki komissiyasının üzvləri arasında iş bölgüsü aparılmış və növbətçilər ayrılmışdır. Bundan əlavə məntəqə seçki komissiyasının üzvləri ilə birlikdə toplantılar keçiririk. Müəyyən məsələlərin müzakirəsi zamanı ortaya çıxan bəzi anlaşılmazlıqları birgə səy nəticəsində aradan qaldırırıq. Aşkarlığa və şəffaflığa da xüsusi diqqət yetiririk. Məqsədimiz Azərbaycan Respublikasının Seçki Məcələsinin tələblərinə və Mərkəzi Seçki Komissiyasının qərarlarına düzgün riayət etməkdir.

Onu da deməyi lazım bilirəm ki, məntəqə üzvlərinin sərbəst işləməsinə şərait var, rabitə əlaqələri yaradılıb, elektrik işığı ilə təminat fasiləsizdir. Məntəqənin texniki-təchizat işləri də başa çatdırılıb. Hazırda seçicilərin bildirişlərini ünvanlarına çatdırmağa başlamışıq.

Öyrəndik ki, adı çəkilən məntəqənin əməkdaşları vaxtaşırı seçicilərin, xüsusilə gənclərin maarifləndirilməsi işlərinin təşkili sahəsində tədbirlər həyata keçirir, lövhələrin hazırlanmasına, müvafiq yerlərdə yerləşdirilməsinə, seçki ilə bağlı təlimatların məntəqədəki lövhələrə vurulmasına səy göstərirlər.

Tam əminliklə demək olar ki, 3 saylı seçki məntəqəsinin seçiciləri qarşıdan gələn bələdiyyə seçkilərində yekdilliklə iştirak edərək, öz iradələrini sərbəst olaraq nümayiş etdirə biləcəklər.

A. CƏLALOĞLU.

İnsan hüquq və azadlıqlarını qorumaq dövlətin ali məqsədidir

Müasir dünyada miqyasına və əhəmiyyətinə görə insan hüquqları sahəsində ən mühüm sənəd Birləşmiş Millətlər Təkilatı Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi sayılır. Bəyannamədə insan hüquq və azadlıqlarının ümumbəşəri səciyyə daşıdığı, heç bir dövlətin daxili işi olmadığı vurğulanmış, həmçinin yaşamaq, azadlıq, bərabərlik, mülkiyyət və təhlükəsizlik haqqı sivil cəmiyyətlərin ali məqsədləri kimi önə çəkilmişdir. İkinci dünya müharibəsindən sonrakı məhrumiyyət və dağıntı dövründə hazırlanan bəyannamə özündə insanlığın gələcək tərəqqi, ləyaqət və dinc yanaşı yaşama cəhdlərini də əks etdirir. Bəyannaməni qısa bir müddətdə dünya ölkələrinin böyük əksəriyyəti, hətta ən qəddar diktaturlar belə imzalamışdılar.

Həmin bəyannamənin prinsiplərini əsas tutan müstəqil Azərbaycan ilk müstəqil Konstitusiyasının da əsasında "İnsan hər şeyin meyarıdır" ideyası durur. Azərbaycan son 21 ildə beynəlxalq birliyin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanda siyasi rəhbərliyə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət almışdır. Azərbaycanda xaos və anarxiya mühitinə son qoyulmuş, hüquqi, siyasi və iqtisadi islahatlara start verilmişdir.

Müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyası ölkənin gələcək inkişaf sahələrini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi başlanmış, dövrün tələblərinə cavab verən bir sıra yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Ulu öndərin 1993-cü ildən tətbiqinə moraforum qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, bu mühüm sənəddə insan hüquqlarının təminatı yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti səhih şəkildə müəyyən edilmişdir. İnsan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev insan hüquq və azadlıqlarının təminatı istiqamətində də kompleks tədbirlər həyata keçirmişdir. Dövlət başçısının "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə 3 mart 2004-cü il tarixli "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiq edilməsi haqqında 3 sentyabr 2004-cü il tarixli sərəncamlarının əhəmiyyəti bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu mühüm sənədlər əsasında ötən 10 ildə insan hüquqları sahəsində böyük maneəyə çevrilən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi tədbirləri həyata keçirilmişdir.

Məlum məsələdir ki, dünyada hər bir dövlətin demokratik dəyərlərə sadiqliyi ilk növbədə onun insan hüquqlarına münasibəti ilə müəyyən olunur. Prezident İlham Əliyevin insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı həyata keçirdiyi kompleks tədbirlər respublikamızın Avratlantik məkana inteqrasiya siyasətinin səmimiliyini əyani surətdə üzə çıxarır. Şəxsiyyətin toxunulmazlığı, söz, mətbuat, vicdan azadlığı, bütün vətəndaşların bərabər hüquqlara malik olması Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmuşdur.İndi ölkədə 20-dən çox siyasi partiyanın sərbəst fəaliyyəti, 3500-dən çox qəzet və jurnalın mövcudluğu, dini etiqad azadlığı ictimai həyat reallıqları kimi diqqəti çəkir.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarının dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, hesabatlar sisteminin təkmilləşdirilməsi və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirilmişdir.

İndi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan 66 il ötür. Hər il dünyanın demokratik ölkələri 10 dekabrı İnsan Hüquqları Günü kimi qeyd edirlər.

Aslan CƏLİLOV.

Azərbaycan kəlayağı sənəti UNESCO-nun siyahısına daxil edilib

UNESCO-nun Qeyri-Maddi Mədəni irs üzrə Hökumətlərarası Komitəsinin noyabrın 26-da keçirilən iclasında kəlayağı sənəti «Kəlayağı simvolizmi və ənənəvi sənəti» adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Kəlayağı fayli Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanıb.

Azərbaycanın mədəniyyət həyatında baş verən bu tarixi hadisə Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasına, ölkəmizin mədəniyyətinin inkişafına göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.

Qeyd edilməlidir ki, Kəlayağıdan başqa Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti və Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti UNESCO-nun Qeyri Maddi Mədəni irs üzrə Reprezentativ Siiyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mənəvi İrs Siyahısına daxil edilib.

«Azərsel» Azərbaycan mobil bazarının lideridir

Azərbaycanın mobil rabitə bazarının 51 faizinə nəzarət edən «Azərsel» şəbəkəsi ölkə əhalisinin 99,8 faizini əhatə edir. Bu o deməkdir ki, «Azərsel Telekom» MMC abunəçilərinin sayı artıq 4,6 milyonu ötüb. Hazırda bu sayda abunəçi ilə «Azərsel» Azərbaycan mobil rabitə bazarının lideridir.

Bu gün 4,6 milyonluq abunəçisi olan «Azərsel» öz faydalı təklifləri və yüksək keyfiyyətləri ilə müştərilər üçün ən əlverişli seçimdir. Məhz «Azərseldə 3 milyondan artıq abunəçi, yəni müştəri bazasının 70 faizi üçüncü dəqiqədən sonra sıfır tariflə danışır. Bunların 1 milyonu «Bölgə» tarifinin, digər 2 milyonu isə gənc seqmentlər üçün tariflərin istifadəçiləridir.

«Azərsel» uzun müddətdir ki, qeyri-neft sektorunun ən böyük vergi ödəyicisi kimi də tanınır. «Azərsel»in bu illər ərzində Azərbaycan telekommunikasiya sektoruna yatırdığı sərmayənin ümumi məbləği 1 milyard ABŞ dollarından artıqdır. Şirkətin dövlət büdcəsinə ödədiyi vergilər də 1 milyard ABŞ dollarından çoxdur.

Məlumat «Azərbaycan» qəzetinin dərc etdiyi informasiya əsasında hazırlanmışdır.